AzXP millət vəkili Məmmədov Qurban Cəlal oğlunun

“AzXP-nin 15.11.2025 tarixli iclasında, İntizam Komissiyasının 3 üzvünün də iştirakçısı olduğu bir sıra millət vəkillərinin hərəkətlərində olan kobud Nizamnamə və Reqlament pozuntularının araşdırılması məqsədi ilə “ yaradılmış Azərbaycan Xalq Parlamentinin İşçi Qrupunun rəhbəri, Rəyasət Heyətinin üzvü Ataxan Vəli Əbilovun imzaladığı 25.11.2025-ci il tarixli məktubunda qoyulmuş suallara cavabları.

1. Məmmədov Qurban Cəlal oğlu, Say Komissiyasının üzvü.

2. Bəli, tanış idim.

3. Xeyr. İclas Reqlamentə uyğun normal başladı.

4. Sakitcə dinlədim və bəyəndim.

5. Sədr şəxsən mənə ünvanlanan çağırış etmədi. O, Reqlamentin 8.1.-ci maddəsində və “Azərbaycan Xalq Parlamenti millət vəkilinin (namizədin) etik davranış kodeksi”nin 1.5. nəzərdə tutulan vəzifələrini pozub , icazə almadan danışaraq, Sədrin öz vəzifələrini yeinə yetirməyə mane olan millət vəkillərinə müraciət etdi. Bir arada mən iclası pozan millət vəkillərini intizama dəvət etməyə cəhd etdim, dinləyən olmadı.

6. Sədrin xəbərdarlıqlarını eşitdim və əməl etdim.

7. Sədrin iclasın idarə edilməsinə dair Reqlament səlahiyyətlərini tanıyırdım, bəli.

8. Mikrofonların bağlanmaması barədə məlumatım var idi. Bu, hamının gözü qarşısında baş verdi. İclasa texniki yardım göstərən hörmətli millət vəkili Teymur Eminbəyli qəsdlə mikrafonu bağlamadı və sonradan da, RH-nin genişləndirilmiş toplantısında mikrafonu qəsdlə bağlamadığını etiraf etdi.

9. İntizam Komissiyasının sədri millət vəkili Eminbəyli Teymur Nəbi oğlunun hərəkətlərini həmin iclasda baş verənlərin təşkilatçısı və Sədrin tələblərinə əməl etməyərək, texniki baxımdan buna şərait yaradan kimi, İntizam Komissiyasının üzvləri Səfərsoy Təranə Həsən qızının və Həmidov Eldar Soltanhəmid oğlunun hərəkətlərini iclası pozanlar arasında fəallıq edən kimi qiymətləndirirəm.

10. Nizamnamənin 7.7.1.-ci, Reqlamentin 8.1.-ci, “Azərbaycan Xalq Parlamenti millət vəkilinin (namizədin) etik davranış kodeksi”nin 1.2., 1.4., 1.5.,1.6., 2.3., 2.4., 2.7., 3.4. və 4.3.-cü maddələri.

11. Millət vəkili kimi Nizamnamə və Reqlamentdə nəzərdə tutulan, eləcə də, xalqım və dövlətim qarşısında olan vəzifələrimi icra etmək, hüquqlarımdan istifadə etmək.

12. Xeyr, çünki Nizamnaməyə, Reqlamentə və “Azərbaycan Xalq Parlamenti millət vəkilinin (namizədin) etik davranış kodeksi”nə zidd hərəkətlər etmədim. Təəssüf hissi isə, Parlamentin işini pozmağa cəhd edən bəzi millət vəkili dostlarımızın hərəkətləri ilə bağlı oldu.

13. Bəli, həmin an emosional gərginlik və ya provokasiya hiss etmişəm.
    - Şəxsən millət vəkilləri:
        - Şərifov Fariz Məhəmmədismayıl oğlunun,

-Xanlarova Rəbiyyə Əli qızının ,
- Pürsüleymanın Hüseyn Abbas oğlunun hərəkətlərini təxribat hesab edirəm,

- Qalan iştirakçıların əməllərini Nizamnamə və Reqlament tələblərini yaxşı bilməmələrinin nəticəsi , bəzilərinin əməllərini isə baş verənlərdən dolayı qrup psixologiyasından irəli gələn emosional reaksiyalar hesab edirəm.

14. "Diktator", "sədri çıxarmaq lazımdır", "bir az da bərk qışqır" , eləcə də Xanlarova Rəbiyyə Əli qızının Sədrin ünvanına dediyi: "iclası heyvan kimi aparırsan "- kimi ifadələrin səsləndirilməsini, məhz ƏSASSIZ, FAKTSIZ, ARQUMENTSİZ olduğu üçün doğru hesab etmirəm, siyasi etikaya uyğun deyil və bu hərəkətləri Parlament Sədrinin təhqir olunmasına, bütövlükdə Parlamentin nüfuzdan salınmasına yönələn yanlış davranış kimi qiymətləndirirəm.

15. Bu ifadələr iclasın ahəngini pozdu, ictimai rəydə Parlamentin nüfuzuna böyük ziyan vurdu və millət vəkilləri arasında olan sağlam mühiti kifayət qədər ciddi zədələdi.

16. İclasın idarəolunmaz vəziyyətə düşməsinin əsas səbəbləri:
   - millət vəkili, İntizam Komissiyasının sədri Teymur Eminbəylinin Sədrin göstərişlərinə tabe olmayaraq mikrafonları vaxtında bağlamaması, Reqlamentə əməl etməyən millət vəkillərinə dəstək verməsi və qızışdırması,
   - Şərifov Fariz Məhəmmədismayıl oğlunun, Xanlarova Rəbiyyə Əli qızının, Pürsüleyman Hüseyn Abbas oğlunun açıq təxribatçı hərəkətləri,
   - bu prosesdə iştirak edən millət vəkillərinin Reqlament və Nizamnaməni yaxşı bilməmələri, hisslərini cilovlaya bilməyərək qrup psixologiyası ilə davranmaları.

17. Bu prosesdə öz məsuliyyətimi Reqlament və Nizamnamənin izahı ilə bağlı millət vəkilləri arasında kifayət qədər maarifləndirmə işində iştirak etməməyimdə görürəm.

18. Reqlamentə əsasən, həmin prosesdə iştirak edən millət vəkillərinin əməllərini ağırlıq dərəcələrinə görə aşağıdakı kimi qiymətləndirirəm:

- **ağır dərəcəli intizam pozuntusuna yol verənlər:**
  - Şərifov Fariz Məhəmmədismayıl oğlu,
  - Xanlarova Rəbiyyə Əli qızı,
  - Pürsüleyman Hüseyn Abbas oğlu,
- **orta dərəcəli intizam pozuntusuna yol verənlər**:
  - Eminbəyli Teymur Nəbi oğlu,
  - Səfərsoy Təranə Həsən qızı,
  - Həmidov Eldar Soltanhəmid oğlu ,
- **yüngül dərəcəli intizam pozuntusuna yol verənlər:**
  -o prosesdə iştirk edən digər millət vəkilləri

19. Belə hadisələrin təkrarlanmaması üçün aşağıdakı tədbirləri təklif edirəm:
   1. **ağır dərəcəli intizam pozuntusuna, millət vəkilləri arasında fitnə salmaq, Parlamenti parçalamaq istiqamətində açıq təxribat törətdiklərinə görə,**
   - Şərifov Fariz Məhəmmədismayıl oğlu,
   -Xanlarova Rəbiyyə Əli qızı,
   - Pürsüleyman Hüseyn Abbas oğlunun millət vəkili səlahiyyətlərinə xitam verilsin.
   2. **orta dərəcəli intizam pozuntusuna yol verdiklərinə görə,**
   **-**Eminbəyli Teymur Nəbi oğluna,
   - Səfərsoy Təranə Həsən qızına,
   -Həmidov Eldar Soltanhəmid oğluna,

tərəfsizliklərini qoruya bilməyərək qrup şəkilində hərəkət etdiklərinə görə, İntizam Komissiyasının tərkibindən uzaqlaşdırılmaqla, onlara intizam tənbehi kimi töhmət elan edilsin.

3. **yüngül dərəcəli intizam pozuntusuna yol verənlər** digər millət vəkillərinə xəbərdarlıq intizam tənbehi tətbiq edilsin.

20. İndiki mərhələdə Parlamentin normal fəaliyyətinə mane ola biləcək Reqlament və Nizamnamə boşluğu görmürəm. Məncə, Nizamnamə və Reqlamentə olduğu kimi əməl edilsə, belə problemlər yaşanmaz.

25.11.2025-ci il

İmza: /Q.C.Məmmədov/